

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

6 mart 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 9 (3721)


# Yeni səhifə açılır

## Afrika ölkələri Azərbaycanla əməkdaşlıqda maraqlıdır

**Afrika ölkələri ilə Azərbaycan arasında müxtəlif sahələr üzrə əməkdaşlıq imkanları mövcud potensialdan genişdir. Ölkəmizin artan nüfuzu, iqtisadi potensialı və gücü, eləcə də Prezident İlham Əliyevin nüfuzlu lider kimi yürütdüyü uğurlu siyasət Afrika ölkələrinin Azərbaycanla əməkdaşlığa marağını getdikcə daha çox artırır.**



Azərbaycan ilə Afrika dövlətləri arasında əlaqələrin dinamik inkişafı əsasən ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövrünə təsadüf edib. 2019-cu ilin oktyabrında Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşünə uğurla ev sahibliyi etməsi tədbirdə təmsil olunan Afrika qitəsi ölkələri ilə ikitərəfli münasibətlərdə yeni səhifə açıb. Bundan sonra - ötən ilin noyabrında Bakının ev sahibliyi etdiyi COP29-da ali səviyyədə təmsil olunan Afrika ölkələrinin dövlət başçıları ilə keçirilmiş görüşlər əlaqələrin genişləndirilməsinin, inkişaf perspektivlərinin "yol xəritəsi"ni, hərtərəfli əməkdaşlıq üçün potensial istiqamətləri müəyyənləşdirdi. Hazırda Prezident İlham Əliyevin siyasi iradəsi və uzunmüddətli strateji məqsədlərə istiqamətlənmiş müdrik siyasəti nəticəsində Afrika qitəsi ölkələri ilə münasibətlərin daha da inkişaf etdirilməsi, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi prosesi davam edir. Azərbaycan, eyni zamanda, Fransanın hələ də neokolonial hökmranlığı siyasətindən əziyyət çəkən keçmiş müstəmləkə ölkələrinin, o cümlədən Afrikada yerləşən ölkələrin öz hüquqları və suverenlikləri uğrunda, həmçinin fransız imperialist hökmranlığından xilas olmaq üçün apardıqları mübarizəyə dəstək verməkdədir. Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə maraq göstərən Afrika ölkələrindən biri də Qvineya-Bisaudur. Bu ölkənin Prezidenti Umaro Moktar Sissoko Embalo ötən ilin noyabrında COP29-da iştirak etmək üçün Azərbaycanda səfərdə olub və Prezident İlham Əliyev ilə görüşüb. Görüş zamanı iqtisadi, neft-qaz, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq, tibb və mühəndislik sahələrində kadr hazırlığı, polis akademiyaları arasında əməkdaşlıq kimi məsələlər müzakirə olunub.

Bundan başqa, ötən il dekabrın 2-4-də Qvineya-Bisaunun xarici işlər, beynəlxalq əməkdaşlıq və icmalar naziri Karlos Pinto Pereyra ölkəmizə səfəri zamanı Azərbaycan Prezidenti tərəfindən qəbul edilib. Səfər çərçivəsində o, Xarici İşlər, Daxili İşlər, Səhiyyə, Təhsil, Müdafiə, Energetika nazirlikləri, "ASAN xidmət"də və SOCAR-da görüşlər keçirib. Görüşlərdə dövlət başçılarının tapşırıqlarına uyğun olaraq, müvafiq sahələrdə, xüsusilə tibb, enerji, müdafiə sənayesi istiqamətlərində əməkdaşlıq, həmçinin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığa dair məsələlər müzakirə olunub. Səfər zamanı iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizmi təsis olunub. Qvineya-Bisau Respublikasının Prezidenti Umaro Moktar Sissoko Embalonun Azərbaycana fevralın 27-də gerçəkləşdirdiyi səfərdə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, maraq doğuran məsələlərə dair müzakirələrin aparılması və razılaşmaların əldə edilməsi baxımından mühüm əhəmiyyət daşıdı.

Azərbaycan ilə Qvineya-Bisau arasında əlaqələr əsasən BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində davam etdirilir. Qvineya-Bisau Respublikası İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. İƏT çərçivəsində Azərbaycanla bağlı qəbul edilən qətnamələrə Qvineya-Bisau dəstək göstərib.

Sadalanan faktlar onu deməyə əsas verir ki, Azərbaycanın əməkdaşlıq üçün yeni istiqamət olan Afrika ölkələri ilə əlaqələri gələcəkdə daha geniş sahələri də əhatələyərək dinamik inkişaf edəcək.

# Əməkdaşlığımız genişlənir

## Azərbaycanla Qazaxıstan energetika sistemini birləşdirir

Son üç ildə Azərbaycanla Qazaxıstan arasında illik ticarət dövriyyəsi təxminən 3 dəfə artıb, nəqliyyat dəhlizləri üzrə yüklərin, o cümlədən tranzit yüklərin daşınmasında artım isə davam edir. Bu barədə Prezident İlham Əliyev martın 3-də Qazaxıstanın Baş naziri Oljas Bektenovu qəbul edərkən bildirilib.

Qəbulda Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə daşınma həcminin artırılması, həmçinin yaşıl enerji sahəsində COP29 çərçivəsində imzalanmış sualtı kabel xətti ilə iki ölkənin energetika sisteminin birləşdirilməsi və yaşıl enerji sahəsində əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb.

# Ölkəmizə diqqət artır

## D-8 ölkələri ilə münasibətlər milli maraqlara əsaslanır

Prezident İlham Əliyev martın 4-də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edib. Görüşdə D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri qeyd olunub. Söhbət zamanı enerji, iqlim fəaliyyəti, ticarət, gənclər, media və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb.

# İdmana dövlət qayğısı

## Azərbaycan dünya səviyyəli yarışlara evsahibliyi edir

Azərbaycanda "Barselona" futbol akademiyası yaradılacaq. Bu, Prezident İlham Əliyev martın 1-də "Barselona" Futbol Klubunun prezidenti Xuan Laportanı qəbul edərkən bəyan edilib. Söhbət zamanı Azərbaycanda idman sahəsinə, o cümlədən futbolun inkişafına göstərilən dövlət qayğısına toxunulub, ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının, həmçinin dünya səviyyəli futbol oyunlarının ən yüksək standartlara uyğun təşkil edildiyi xüsusi vurğulanıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev martın 4-də Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev martın 3-də Ş.T.Babayevin Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) icraçı direktoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 28-də Azərbaycan Respublikasında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 25-də S.G.İlyasovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 28-də Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli 759 nömrəli və "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" 2021-ci il 7 oktyabr tarixli 1455 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Qarabağda tonqallar qalanır

## Keçmiş məcburi köçkünlər Novruzu doğma yurdlarında qarşılayacaqlar

Bu il artıq 5-ci il olur ki, azad edilən ərazilərdə Novruz tonqalları qalanır. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın ən ülvi və müqəddəs arzusunu həyata keçirdi. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa, quruculuq və Böyük Qayıdış prosesi sayəsində işğaldan azad edilərək dövlət suverenliyimizin bərpa olunduğu bu ərazilərdə bayram əhval-ruhiyyəsi duyulur. Xalqımız bu arzu, amal ilə yaşayırdı ki, torpaqlarımız işğaldan azad edilsin, soydaşlarımız doğma yurd-yuvalarına qayıtsın, bu torpaqlarda yeni həyat başlasın. Bu arzular artıq gerçəklikdir.

Dövlət başçısı İlham Əliyevin ötən il Xankəndi şəhərində Novruz tonqalını alovlandırdıqdan sonra Azərbaycan xalqına bayram təbrikində qeyd etdiyi kimi, bu gün biz azad edilmiş Qarabağda başımızı dik tutaraq yaşayırıq. Xankəndiyə və digər şəhərlərə, o cümlədən Xocalıya, Şuşaya, Cəbrayıla, Kəlbəcərə keçmiş köçkünlər qayıdır, bu torpaqlarda yenidən həyat qaynayır. Artıq Zəngilanın Ağalı kəndi ilə yanaşı, Ağdərə rayonunun Talış kəndində, Füzuli şəhərində, Şuşa şəhərində, Laçın şəhərində və rayonun Sus, Zabux kəndlərində, Cəbrayıl



şəhərində, Xocalı şəhərində və rayonun Ballıca kəndində on mindən çox keçmiş məcburi köçkün evlərlə təmin edilib. Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 mindən artıq insan yaşayır.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibələrinin birində öz doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayan insanlara müjdəli xəbərlər verdi. Bildirdi ki, bu ilin sonuna qədər daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər qaytarılacaq: "Bu il üçün bizim planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır. O şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir. Bir çox kəndlərdə, şəhərlərdə indi inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar".

Bundan sonra əbədi olaraq vətəndaşlarımız, keçmiş məcburi köçkünlər Novruzu doğma yurdlarında qarşılayacaqlar.


Prioritetimiz vətəndaş məmnunluğudur 2

Seçilən gəncliyin nümayəndəsi 3

Gənc zabitlər and içdilər 3

Göyçə gözüm işığı 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Qarabağda buraxılış imtahanı

İşğaldan azad olunan ərazilərdə tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. Buraxılış imtahanı Xankəndi şəhər 4 nömrəli, Ağdərə rayonu Talış kəndi, Xocalı 1 nömrəli orta məktəblərində təşkil edilib. Sözügedən ərazilərdə keçirilən ilk imtahanlarda ümumilikdə 26 şagird iştirak edib.

### Qərbi Azərbaycanlılar dəstəklənir

Qərbi Azərbaycan mövzusunda beynəlxalq dəstəyin əldə olunması istiqamətində növbəti uğur qazanılıb. Asiya Parlament Assambleyasının Bakıda keçirilmiş sessiyasında qəbul edilmiş yekun sənəddə Qərbi Azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına birmənalı dəstək ifadə edilib.

### Hərbi İnstituta tələbə qəbulu başlayıb

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutuna tələbə qəbulu elan edilib. İnstitutu müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "Leytenant" hərbi rütbəsi verilərək, onlar Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər. Sənədlərinin qəbulu martın 1-dən aprel ayının 20-dək həyata keçiriləcək.

### Qanunsuz yaşayan əcnəbilər saxlanılıb

Bu ilin yanvar-fevral ayları ərzində ölkə ərazisində qanunsuz yaşayan 59 əcnəbi polis əməkdaşları tərəfindən saxlanılıb. Həmçinin, ötən il keçirilən COP29 tədbirləri çərçivəsində Bakı şəhərinə gələn, amma ölkə ərazisindən çıxışları qeydə alınmayan müxtəlif xarici ölkələrin 13 vətəndaşının da yeri müəyyən edilərək barələrində qanunauyğun tədbir görülüb.

### Naxçıvanda avtobuslar "yaşıllaşır"

Naxçıvanda ictimai nəqliyyatda yalnız elektrik mühərrikli avtobuslar işləyəcək. Verilən məlumata görə, bu məqsədlə 60 ədəd elektrik mühərrikli avtobus alınacaq və enerjidoldurma cihazları quraşdırılacaq, habelə həmin avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi üçün depo (qaraj) infrastrukturu təkmilləşdiriləcək..

### Növbəti karvan Ağdərəyə çatıb

Ağdərə rayonunun Həsənriz kəndinə 25 ailə - 91 nəfər köçürülüb. Kəndə köçən ailələrə mənzillərin açarları da təqdim olunub. Mənzillərin açarlarının təqdim olunması mərasimində dövlət nümayəndələri iştirak edib. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda ümumilikdə 40 minə yaxın insan yaşayır.

### O torpaqlarda əkin-biçin başlayır

Zəngilan rayonunun Ağalı kəndindəki kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün müraciətlərin qəbuluna başlanır. Məlumata görə, müraciətlər Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) - eagro.az saytı vasitəsilə qəbul ediləcək. Bununla da işğaldan azad edilmiş rayonlarda torpaqların istifadəyə verilməsinə start verilir.

### Poçt xidmətləri genişlənir

"Azərpoçt" MMC-yə məxsus "Postcargo" şirkəti Qarabağ iqtisadi rayonunda fəaliyyət dairəsini genişləndirərək Şuşa şəhərinə də onlayn sifarişlərin çatdırılmasına başlayıb. Qeyd edək ki, bu günə kimi Xankəndi və Füzuli şəhərlərinə çatdırılma edən "Postcargo" artıq Şuşada yaşayan vətəndaşlarımızın da sifarişlərini tez və rahat şəkildə əldə etməsini təmin edəcək.

### Müraciətləri süni intellekt cavablandıracaq

Bu ildən etibarən İqtisadiyyat Nazirliyinin "Çağrı mərkəzi"ndə vətəndaşların müraciətlərini artıq operatorlar deyil, süni intellekt cavablandıracaq. Bunu İqtisadiyyat Nazirliyinin əməkdaşı Fariz Cəfərov deyib. O bildirib ki bu həm müraciətlərin mövzusunu, həm də cavabların keyfiyyət səviyyəsini müəyyən etməyə kömək edəcək.

### Qarabağda əmək yarmarkaları keçiriləcək

Bugünkü əmək yarmarkasında təqdim edilmiş vakansiyaların əksəriyyəti peşə və ixtisas tələb edən sahələrlə bağlıdır. Dövlət Məşğulluq Agentliyinin məlumatına görə, vakansiyaların böyük əksəriyyəti bank, sığorta, istehsal və xidmət sənayesini əhatə edir. Bu il ərzində 150 əmək yarmarkasının keçirilməsinin planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərdə də əmək yarmarkaları təşkil olunacaq. Ötən il işğaldan azad edilmiş ərazilərdə 10 əmək yarmarkası, 1 peşə yarmarkası təşkil edilib: "Cari ildə işğaldan azad edilmiş ərazilərimizdə iki əmək yarmarkası keçirilib.

# Təhlükəsizliyimiz öz əlimizdədir

## Kibertəhlükəsizlik üçün nələri etməli?

**İndi uşaqdan-böyüyə, demək olar ki, əksəriyyət internetə çıxışı olan cihazlara sahibdir. Bu, müasir dövrün yaşam tərzinə uyğunlaşmaq kimi müsbət tendensiyanın göstəricisi olmaqla yanaşı, həm də kiberrisklərin artması deməkdir. Real vəziyyət ilk növbədə kiberdələduzluq halları üçün "münbit şərait" yaradıb.**

Qlobal internet şəbəkəsi risklərin sərhədlərini də genişləndirdiyinə görə bir ölkənin təhlükəsizlik tədbirləri yetərli olmur. Üstəlik, bu cinayət əməlində viktimioloji əsasların olması cinayətkarları durdurmağı bir xeyli çətinləşdirir.

Xüsusilə son zamanlar səs klonlama texnologiyası sosial şəbəkələrdə və müxtəlif platformalarda təhlükə mənbəyinə çevrilib. Bununla bağlı Daxili İşlər Nazirliyi maarifləndirici video-çarxlar da yayımlayıb. Təcrübə göstərir ki, dələduzlar bu texnologiya vasitəsilə insanların səsini təqlid edərək onların yaxınlarını aldatmağa çalışırlar. Bunun üçün süni intellekt əvvəlcə real səs nümunələrini öyrənir, daha sonra isə istənilən mətnə uyğun şəkildə həmin səsi yenidən yaradır.

Kibertəhlükəsizliklə bağlı yerlərdə maarifləndirici tədbirlər keçirən polis əməkdaşları süni intellektlə klonlanmış səsləri tanımaq üçün bir neçə vacib məqama diqqət çəkə bilərlər.

Məsələn, mütəxəssislərin sözlərinə görə, belə klonlanmış səslər adətən emosional baxımdan qeyri-təbii səslənir. Hətta tanış bir səs olsa da, emosional çalarlar qeyri-adi və süni görünə bilər. İnsan nitqi təbii pauzalar və ahənglərlə müşayiət olunur. Süni yaradılmış səslərdə isə bu cəhətlər ya həddən artıq mükəmməl, ya da qeyri-adi dərəcədə düz və monoton olur. Əgər kimsə şübhəli bir səs zəngi və ya mesajla qarşılaşsa, doğrulama aparmaq üçün həmin şəxslə başqa bir vasitə ilə, məsələn, videozəng






və ya fərqli bir telefon nömrəsi ilə əlaqə saxlamalı, şübhəli hallarda isə polisə müraciət etməlidir. Süni intellektlə yaradılan səsləri müəyyən edən proqramlar da mövcuddur, səs yazılarını belə alqoritmlər vasitəsilə yoxlamaq mümkündür.

Kiberhücumlardan qorunmaq hər kəsin məlumatlılıq səviyyəsindən xeyli dərəcədə asılıdır. Rəqəmsal məlumatların qorunmasının ilk mərhələsi güclü və unikal parollardan istifadə etməkdir. Əlbəttə, şifrələr də sındırıla bilər. Hakerlər giriş detallarını birbaşa onlayn xidmət təminatçısından oğurlaya bilirlər. Qarşısına məqsəd qoymuş insan şifrənizi sındıra və ya özünüzün onu verməyinizə sizi inandıra bilər. Buna görə də önəmli onlayn hesabları qorumaq üçün iki faktorlu təsdiqləmədən (2FA) istifadə etmək lazımdır.

İki faktorlu təsdiqləmə aktivləşdirilən zaman onlayn hesaba daxil olmaq üçün şəxsiyyətinizi iki müxtəlif yolla təsdiqləməyinizi tələb edir. Deməli, şifrə daxil etməkdən əlavə, şəxsiyyətinizi təsdiq etmək üçün ikinci məlumatı da daxil etməlisiniz. Bu, hesabı əlavə müdafiə qatı ilə təmin edir, şifrələr sındırılsa belə, onu qoruyur.

Wi-Fi şəbəkəsinin təhlükəsizliyinə də diqqət yetirilməlidir. Şəbəkənin adını (SSID) gizlətməklə onun aşkar edilməsini və arzuolunmayan girişlərdən qorunmasını təmin etmək mümkündür. Şifrə mümkün qədər çətin və qarışıq hərf, rəqəm, simvollardan yaradılmalıdır. Ən çox ictimai Wi-Fi şəbəkələrdən istifadə zamanı təhlükə ortaya çıxa bilər. Ümumiyyətlə ictimai yerdə cihazlarda məkan paylaşımı, hətta "Bluetooth" kimi funksiyaları lazım olmadıqca deaktiv etmək məsləhət görülür.

Sosial medianın populyarlaşması ilə ondan istifadə edənlərin həm sayı artıb, həm də şəxsi məlumatların paylaşılması halları çoxalıb. Bu da əlavə risklər yaradır. Xüsusən səyahət zamanı üzərində fərdi məlumatlar olan bilet və ümumvətəndaş pasport görüntülərini sosial şəbəkələrdə paylaşılması riskləri dəfələrlə artırır.

Bu qabaqlayıcı tədbirlər hər nə qədər rəqəmsal savadlılıq, texniki bilgilər olaraq effektiv olsa da, kiberməkanda ən çox təsadüf edilən kiberdələduzluq cinayətləri tamahkarlıqla da sıx bağlıdır. Qısa müddətdə böyük pullar qazanmaq, əziyyət çəkmədən maddi qazanc götürmək kimi istəklər çox vaxt adi insanları dələduzların toruna salır. Yəni texniki bilgilərlə yanaşı həmişə yadda saxlamalı olduğumuz bir gerçəklik də var: havayı pendir ancaq tələdə olur.

*"Polis"*

# Prioritetimiz vətəndaş məmnunluğudur

## İnnovativ vasitələr fəaliyyətimizin səmərəsini artırır

Azərbaycan uzun müddətdir ən təhlükəsiz ölkələrdən biri kimi yüksək beynəlxalq reytinqə sahibdir. Bunda dəyişən dünyanın yeni çağırış və təhdidlərinə uyğun olaraq dövlət səviyyəsində adekvat təhlükəsizlik təbirlərinin görülməsinin, innovativ həll yollarının tapılmasının rolu özünü çox açıq şəkildə göstərir.

Prezident İlham Əliyevin fərmanı ilə təxminən 20 il bundan əvvəl yaradılan "102" xidməti zəng mərkəzi daxili işlər orqanlarında informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində yeni mərhələnin əsasını qoydu. Təvazökarlıqdan uzaq olsa da, qeyd etməliyik ki, hazırda ölkəmizdə ən aktiv və effektiv işləyən qaynar xətt sistemlərindən biri, bəlkə də birincisi məhz Daxili İşlər Nazirliyinin bu zəng mərkəzidir. Gün ərzində respublikanın istənilən nöqtəsindən minlərlə insan xidmətə operativ şəkildə müraciət edib, kömək ala bilir. Polis əməkdaşlarının hadisə yerinə vaxtında çıxmaları, operativliyi, hadisə baş verən əraziyə polis naryadalarının istiqamətləndirilməsi, cinayətlərin qeydiyyatının şəffaflığı kimi olduqca vacib amillər çoxdan öz həllini tapıb. Eyni zamanda hazırlanan, törədilən və ya törədilmiş cinayətlər və digər hüquqpozmalar barədə məlumatlar üzrə ərazi polis orqanlarında görülən işlərə Nazirliyin güclü nəzarəti də təmin olunub. Polisin müxtəlif qanun pozuntularına, cinayətlərə, fövqəladə vəziyyətlərə çevik reaksiya verə bilən əsas innovativ vasitələrindən biri də DİN-in "Təhlükəsiz Şəhər" avtomatlaşdırılmış idarəetmə sistemidir. Cinayətkarlıqla mübarizə və ictimai asayişin mühafizəsində bu elmi-texnoloji yeniliyin tətbiqi Bakıda sabitliyin təmin edilməsinə bu gün də əvəzsiz töhfə verməkdədir. 15 ildən artıqdır "Təhlükəsiz Şəhər" cinayətlərin açılması və vətəndaşların hüquqazidd əməllərdən qorunması üçün gecə-gündüz fasiləsiz xidmət göstərir. Bu elektronlaşdırılmış təhlükəsizlik sistemi MDB məkanında ən yüksək səviyyədə məhz Azərbaycanda qurulub. Əvvəl-




lər təhlükəsiz şəhərin kameraları yalnız əhalinin sıx hərəkətdə olduğu küçə və prospektlərdə,




parklarda, idman kompekslərində quraşdırılırdı. Hazırda isə həm kameraların sayı artırılıb, həm də xidmət daha keyfiyyətli kameralarla təchiz olunub. Xüsusən, üztanıma proqramları ilə təmin edilmiş kameralar gecə saatlarında istər işıqlandırılmış, istərsə də işıqlandırılmamış küçələrdə effektiv görüntü ala bilir. "Təhlükəsiz Şəhər"in "gözləri" nəinki Bakı və ətraf kəndləri, ölkənin strateji əhəmiyyət daşıyan şəhərlərini də "görür".

2022-ci ildə Daxili İşlər Nazirliyinin tabeliyinə verilən Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi (NİİM) şəhərdə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün polisin gördüyü tədbirlərin texnoloji mahiyyətini bir qədər də artırdı. Yollardakı vəziyyətin müşahidəsi, hərəkət zamanı nasazlıq yaranan nəqliyyat vasitələrinin, baş vermiş qəza hallarının müəyyənləşdirilməsi, sıxlıq yaranan ərazilərdə monitorinqin aparılması kimi vəzifələr artıq müasir texnologiyanın tətbiqi hesabına həll olunur. Ayrıca olaraq, Mərkəz cinayətkarlığın qarşısının alınmasına da fayda verir.

Ötən il Daxili İşlər Nazirliyinin "E-Polis" mobil tətbiqinin istifadəyə verilməsi isə ən son yenilik oldu. Bununla polisin xidmətinin bir hissəsi rəqəmsallaşdı. Artıq vətəndaşlar polis idarəsinə getmədən Daxili İşlər Nazirliyinin səlahiyyətində olan bir çox xidmətdən onlayn qaydada yararlana bilir. Elektron polis tətbiqi hətta vətəndaşlara daxili işlər orqanlarına müraciət etməyə də imkan yaradır. Bütün müraciətləri yazılı forma ilə yanaşı, tətbiqdə olan virtual 102 bölməsi vasitəsi ilə səsli və ya video şəklində də göndərmək mümkündür. Yeri gəlmişkən, bir neçə gün əvvəl "E-Polis" tətbiqinə yeni funksiyalar da əlavə edilib. Bu tətbiq vasitəsi ilə vətəndaşlar sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün də onlayn qaydada müraciət edə biləcəklər.

Göründüyü kimi, Daxili İşlər Nazirliyi polis - vətəndaş münasibətlərində operativliyin artırılması və vətəndaşyönümlü xidmətlərin təkmilləşdirilməsi məqsədinə doğru inamla irəliləyir.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Ötən ayın statistikası

## Qeydə alınan müraciətlər cavablandırılır

Bu il fevral ayının 1-dən 28-dək DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 3492 müraciət daxil olub və hər biri cavablandırılıb. Onlardan 782-si (247-si təşəkkür məktubu) qeydiyyata alınması və aidiyyəti üzrə yönləndirilməsi üçün DİN-in Katibliyinə təqdim edilib.

Müraciətlərin 1278-i cinayətkarlıqla mübarizə, 715-i qanunvericilik və digər məsələlərlə bağlı olsa da, 546-sı əməkdaşların fəaliyyətinin qanunauyğunluğunu, 376-sı Dövlət Yol Polisinin fəaliyyətini, 151-i ictimai təhlükəsizliyi, 320-si vakansiyalar və xidmətə qəbul, 106-sı isə istintaq və təhqiqat qurumlarının fəaliyyətini əhatə edib.

# Seçilən gəncliyin nümayəndəsi

## Vətən torpaqları da, sabitlik də, əmin-amanlıq da onlara əmanətdir

**Müharibənin izi heç vaxt silinmir, ağrısı unudulmur. Baş vermə səbəbindən asılı olmayaraq, insan ölümünə rəvac verən cinayətlərin ən qorxunc forması müharibədir. Çünki onun arealı daha geniş, dağıdıcılığına görə ölçüsü təsəvvür olunmazdır. Bəzən daha tez bitəcəyi ehtimal olunan müharibənin aylarla, illərlə davam edəcəyini proqnozlaşdırmaq çətin olur.**

Müharibə təkcə insan itkisi ilə yadda qalmır. O ətraf mühitin, canlı aləmin, təkcə bir bölgənin, regionun deyil, bəşər tarixinin inkişafına şahidlik etmiş, onun mədəni yüksəlişinin təcəssümü olan maddi və mənəvi abidələrin, dəyərlərin yox olmasına, yer üzündən silinməsinə gətirib çıxaran səbəblərdəndir.

Göz önündə olsa da, daim görməzlikdən gəlinən, öz dağıdıcılığı ilə bəşər tarixinə qara səhifə kimi yazılan Qarabağ münaqişəsinin müharibəyə çevrilməsi böyük güclərin maraq dairəsində olduğuna görə insan hüquqları, insan haqqları bu gün olduğu kimi, 30 il bundan öncə də müzakirə mövzusu deyildi.

Münaqişəyə haqsız yerə cəlb olunanın, əslində torpağı qəsb edilənin susdurulması üçün XX əsrin əvvəllərində torpaqlarımızda Ermənistan dövləti yaradan qonşumuzla okeanın o tayındakı gücün, eləcə də qoca qitənin planları bir idi. Qafqazda güclənməkdə olan və qısa zaman kəsiyində onun liderinə çevriləcək bir dövləti müharibələrlə zəifləməkdən ötrü illərlə əllərinin kölgəsində böyütdükləri, onların alətinə çevrilməkdən ötrü hər əmrə müntəzir "dövlət" bircə himə bənddi.

Əslində 30 il bundan öncə də torpaqlarımızın işğalına adlarını yuxarıda qeyd etdiklərim rəvac vermişdilər. Birinci Qarabağ müharibəsinin iştirakçıları muzdluların hansı ölkələrin vətəndaşları olduğunu daha yaxşı bilirlər…

Ataşkəsdən sonra da münaqişənin həlli istiqamətində keçirilən görüşlərdə erməni təəssübkeşliyi həqiqətin ortaya çıxmasına, təcavüzkarla təcavüzə məruz qalanın tanınmasına imkan vermədi. Gücün söz sahibi olduğu masalarda Azərbaycanı təslimçi sülhə vadar etmək istəyinin və istəyənlərin qarşısını siyasi qətiyyəti ilə alan, bir xalqın adından sinəsini qabağa verib döyüşən ulu öndər Heydər Əliyev isə gec-tez haqqın qələbə çalacağına inanırdı. Məhz





bu inamla müasir Azərbaycan qurulur, iqtisadiyyatı dirçəlir və inkişaf edirdi. Ötən illər ərzində dünyanın nəzərləri Xəzərin sahilindəki sabitlik adasına dikildi. Çünki yaradılan reallıqlar dünyanı qorumaq üçün perspektivlər vəd edirdi. Qafqazdan dünyaya sülh çağırışları etməklə Azərbaycan düşmən ölkənin havadarlarını fakt qarşısında qoymuşdu. Lakin məkrli niyyətlər uzanmış dostluq əlini tutmağa deyil, kəsməkdə qərarlı idilər.

Və düz beş il öncə Azərbaycanı müharibə təhlükəsi ilə üz-üzə qoymaq cəhdi onların gözləntilərini doğrultmadı. Siyasi təzyiqlər, hərbi güc nümayişi yetərsiz oldu. Ermənistanla birgə XXI əsrdə onun havadarları da həm siyasət, həm də döyüş meydanında məğlubiyyətə uğradılar.

Ədalətin təntənəsinə bütün dünya şahidlik etdi.

Ölkəmizin hərbi uğurlarını davamlı, güclü edən isə dövlət, xalq həmrəyliyi idi. Məhz prezident İlham Əliyev bu faktı bütün çıxışlarında dönə-dönə vurğulayır. Vətən müharibəsi həm də Azərbaycan gəncliyinin vətənpərvərliyinin nümayişi oldu. Müzəffər Ali Baş Komandanın çağırışına ilk öncə onlar səs verdi. Xocalı qətliamını mavi ekranlardan seyr edən, Şuşanın, Laçının, Kəlbəcərin odlara qalanmasını valideynlərindən eşidən gəncliyin qisası çox ağır oldu. Öncə düşmənə nifrətlə silahlandıq bu haqq mübarizəsində. Sonra düşmən üstünə tanklarımız yeridi…

DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı polis serjantı Toğrul Rəhman oğlu Pənahov da Vətən müharibəsinin bizə tanıtdırdığı gəncliyimizin nümayəndəsidir. O, 2001-ci ildə Kürdəmirin Qaramahmudlu kəndində doğulub. Həmin kənddə tam orta məktəbi bitirib. 2019-cu ilin oktyabrında hərbi xidmətə yollanıb.

“Ordumuzun qüdrəti, gücü, təchizatı haqqında eşitdiklərimi gözlərimlə gördüm. Qafqazın ən güclü ordusunda xidmət etmək və qarşıya qoyulan tapşırıqları yerinə yetirmək çox qürurverici idi. Komandirlər tərəfindən aparılan döyüş hazırlığı bizim daha da püxtələşməyimizə, ən çətin anlarda qərar vermək bacarıqlarımızın üzə çıxmasına şərait yaradırdı. Təlimlər döyüş şəraitinə uyğunlaşdırılmışdı”, - deyir həmkarımız. Onun da ən böyük arzusu düşməndən azad edilmiş Vətən torpaqlarında üçrəngli bayrağımızın dalğalanmasını görmək idi. 2020-ci ildə Gəncədəki N saylı hərbi hissədən cəbhə bölgəsinə yola düşən oğullar ilin içində o da vardı. Müqəddəs bir amal uğrunda qorxmadan, çəkinmədən birgə addımlayan oğullar illərin həsrətinə, yurd yanğısına son qoymaq üçün cəbhədən-cəbhəyə şığıyırdılar. İllər öncə qəhrəmanımızın əmilərinin, dayılarının döyüşdüyü torpaqları iradəsi, dözümü poladdan möhkəm olan Azərbaycan əsgəri, Azərbaycan gəncliyi düşməndən geri alır, azadlığına qovuşan torpaqlarımıza bayrağımızı sancırdı.

Toğrul Pənahov Cəbrayıl, Qubadlı və Laçın istiqamətindəki döyüşlərdə şücaət göstərib. Müzəffər Ali Baş Komandan cənab İlham tərəfindən “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Laçının azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub.

O, döyüşlərdə torpaqlarımızın azadlığı uğrunda döyüşən və müharibədən sonra azad olunmuş torpaqlarda polisin faaliyyətini, xidmətini görüb və ürəyində polis olmaq istəyi baş qaldırıb. 2022-ci ildə polisin sıralarına qəbul olunmaq üçün DİN rəhbərliyinə müraciət ünvanlayıb. Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun keçirdiyi sıra baxışında seçilib, növbəti mərhələyə buraxılan gənclərdən olub. 2023-cü ilin yanvarından DİN-in Əlahiddə Çevik Polis Alayında Vətəninə, xalqına, dövlətinə xidmət edir, sabitliyi, əmin-amanlığı qoruyur.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Onlar həm də dilimizin keşiyindədirlər

## Dilimiz milli kimliyimizin atributlarından biridir

Bu günlərdə DİN-in Polis Akademiyasında “Azərbaycan dili xalqımızın milli qüruru və dövlətçilik simvoludur” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə Azərbaycanda “Atatürk” mərkəzinin, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun, DİN-in Polis Akademiyasının, Heydər Əliyev adına Hərbi İnstitutun, DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun, DTX-nin Heydər Əliyev adına Akademiyasının, Dövlət Gömrük Komitəsi Akademiyasının, Fövqəladə Hallar Nazirliyinin



Akademiyasının müəllim və kursantları iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyev və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri açıq elan edərək dəyirmi masanın işinə uğurlar arzulayan DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov Azərbaycan dilinin Konstitusiyamızda və digər dövlət sənədlərində təsbitinə diqqət çəkib, dilimizin qorunması istiqamətində görülən işlərdən danışıb.

Sonra dəyirmi masa iştirakçılarının ana dilimizlə bağlı hazırladıqları məruzələr dinlənilib. Sonda mövzular ətrafında fikir mübadiləsi aparılıb, kursantlar ana dilimizə həsr olunan şeirlər söyləyiblər.

*"Polis"*

# Məqsədimiz öyrətmək və qorumaqdır

## Qaydalara riayət etmək vətəndaşlıq borcumuzdur

İmişli Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin təşkilatçılığı ilə A.Eminov adına 7 saylı tam orta məktəbdə “Yol hərəkəti qaydalarına riayət etmək təhlükəsizliyin qarantıdır” mövzusunda maarifləndirici görüş keçirilib.

Tədbirdə çıxış edən polis əməkdaşları keçirilən tədbirin əsas mahiyyətinin azyaşlıları yol hərəkəti təhlükəsizliyi qaydaları ilə tanış etmək və onların iştirakı ilə baş verə biləcək yol qəzalarının qarşısını almaq olduğunu



bildiriblər. Tədbir zamanı yol nişanlarının, svetoforların və piyada keçidlərinin əhəmiyyətindən danışılıb, nişanlardan düzgün istifadə qaydaları haqqında geniş məlumatlar verilib.

Tədbirin sonunda polis əməkdaşları tərəfindən şagirdlərə təhlükəsizlik qaydaları əyani şəkildə izah olunub, hərəkətin sıx və intensiv olduğu küçələrdə hərəkət edərkən daha ehtiyatlı olmalarının zəruriliyi onların diqqətinə çatdırılıb.

# Gənc zabitlər and içdilər

## Qazandıqları təcrübə xidmətlərində dönüş yaradacaq

DİN-in Polis Akademiyasının İxtisasartırma və təkmilləşdirmə fakültəsində “İlkin hazırlıq” kursunu bitirmiş əməkdaşların “Andiçmə” mərasimi keçirilib.

Mərasimi giriş sözü ilə Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov açıb. O, kursu bitirmələri münasibətilə dinləyiciləri təbrik edib, gələcək xidməti fəaliyyətlərində əldə etdikləri nəzəri biliklərin faydalı olacağını bildirib.

Mərasimdə təhsildə aparılan yeni innovativ metodlara toxunulub, eyni zamanda, daxili işlər orqanlarının ayrı-ayrı xidmət sahələrini tənzimləyən normativ-hüquqi aktların öyrənilməsinin daima diqqət mərkəzində saxlanıldığı qeyd edilib.

Məzunlar adından çıxış edən polis kiçik leytenantı Şəmsiyyə Nadirli təhsil aldıqları müddətdə onlara yaradılmış şəraitə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

# Polisin operativliyi...

## Baş İdarə tərəfindən monitorinq keçirilib

Bakı şəhər Baş Polis İdarəsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin əməkdaşları martın 4-də “Azərbaycan Uşaqları” İctimai Birliyinin nəzdində Binəqədi rayonunda fəaliyyət göstərən uşaq sığınacağına baş çəkiblər. Baş verə biləcək hər hansı bir hadisəyə nə qədər tez reaksiya verildiyini öyrənmək məqsədilə sığınacaqdan ərazi polis bölməsinə zəng edilib. Zəng qəbul ediləndən sonra Binəqədi RPİ-nin 4-cü Polis Bölməsinin əməkdaşları çağırış yerinə vaxtında çatıblar.

Asayiş keçikçilərinin operativliyini yüksək qiymətləndirən Kəmalə Ağazadə polisin belə tədbirlərinin çox vacib və qənaətbəxş olduğunu, sığınacağın təhlükəsizliyinin təmin edilməsinin həyati əhəmiyyət daşıdığını, onlara sığınan uşaqların qorunması ilə bağlı qayğılarının sahə müvəkkili, yetkinlik yaşına çatmayanlarla iş aparan inspektorlar və post-patrul xidmətinin əməkdaşları tərəfindən qarşılandığını qeyd edib. O, bunun Bakı şəhər BPİ-nin həyata keçirdiyi nəzarət-monitorinqi çərçivəsində edilən çağırışa inzibati ərazidə polis əməkdaşlarının çevik rekasiya verməleri ilə bir daha təsdiqləndiyini vurğulayıb.

Qeyd edək ki, oxşar tədbirlər bu günlərdə daha bir neçə sığınacaqda keçirilmişdi.

# Oğru kameraya düşdü

## Onu yenə də məhbəs gözləyir

Nizami rayon sakini polisə müraciət edərək yaşadığı mənzildən 150 dollar, 4000 manat dəyərində mobil telefon, oyun konsulu və qızıl-zinət əşyalarının naməlum şəxs tərəfindən oğurlandığını bildirib. Nizami Rayon Polis İdarəsi 25-ci Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər oğurluqla əlaqəli cinayətlərə görə məhkum olunmuş 21 yaşlı Anar Cəfərov müəyyən olunaraq saxlanılıb. Onun törətdiyi cinayət təhlükəsizlik kameraları vasitəsilə də anbaan lentə alınıb. Faktla bağlı araşdırma aparılır.

# Kafedə qumarxana

## Obyekt sahibinin barəsində istintaq aparılır

Qaradağ Rayon Polis İdarəsinə Lökbatan qəsəbəsində yerləşən kafelərin birində qanunsuz pul uduşlu qumar oyunlarının təşkil edildiyi barədə əməliyyat məlumatı daxil olub. Görülən tədbirlərlə qumar oyunlarını təşkil edən həmin obyektin sahibi 40 yaşlı Ural Hüseynov və daha 3 nəfər polis əməkdaşları tərəfindən saxlanılıblar. U.Hüseynov barəsində Qaradağ RPİ-də istintaq araşdırmaları aparılır. Digər şəxslər barəsində toplanmış materiallar baxılması üçün məhkəməyə göndərilib.

# Evindən cəbbəxana çıxdı

## Polis əməliyyat yolu ilə silah aşkarladı

Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsinə paytaxt sakini 74 yaşlı V.Usolsevin rayon ərazisində yerləşən evində odlu silah-sursat gizlətməsi barədə əməliyyat məlumatı daxil olub. Həmin şəxs polislər tərəfindən saxlanılıb.

Onun ünvanından 1 “Kalaşnikov” avtomatı, 2 tüfəng, 1 tapança və 153 ədəd patron aşkarlanaraq



götürülüb.

Faktla bağlı Cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Göyçə gözüm işığı

## Adı Dədə Qorqud dastanında çəkilən yurd yerimiz

Rusiya imperiyasının dəstəyi ilə tarixi torpaqlarımıza köçürülən haylar Göyçə mahalında da məskunlaşmışdılar. Fürsət düşdükcə azərbaycanlılara qarşı öz çirkin niyyələrini həyata keçirən hayların əsas məqsədi bu yerlərə sahiblənmək, onun əzəli sahiblərini buradan uzaqlaşdırmaq idi. XX əsrin əvvəllərində, 1905-1907, 1918-1920-ci illərdə göyçəlilərin deportasiyası zamanı Azərbaycana, Kəlbəcərə pənah aparanların içində Dədə Ələsgər də vardı. 1948-1953-cü illərdən sonra daha da azğınlaşan düşmən 1988-ci ildə öz məqsədinə çatdı. Sonuncu deportasiyadan sonra isə o torpaqlardakı izimizi, tariximizi məhv etməklə yanaşı, onu öz adlarına çıxmaq üçün min cür yalana əl atdılar. Etiraf edək ki, yalanları ayaq tutub yeridi də. Göyçəlilər tarixi yurdlarından pərən-pərən olub Azərbaycana pənah gətirdilər.

Düşmənin yalanını ifşa etmək, onu tarixi torpaqlarımızdan çıxarmaq bu gün bəlkə də çətin, mümkünsüz kimi görünsə də ancaq biz ümidimizi itirməməliyik. O yurdlara dönmək naminə onun tarixini uşaqlara, gənclərə öyrətməliyik. Çünki unudulan tarixlə düşmənə nifrət ruhunu övladlara aşılamaq olmaz. Odur ki, Göyçə mahalı ilə bağlı məlumatları sizlərə təqdim edirik.

Göyçə Qərbi Azərbaycanın ərazisində, Göyçə gölü ətrafında olan tarixi mahaldır. Göyçə mahalı Qərbi Azərbaycanda 1988-ci ilə qədər azərbaycanlıların kompakt yaşadığı ərazilərdən biri olub. 1747-1828-ci illərdə İrəvan xanlığının mahalı olub.



Mahal Rusiyaya müharibə ilə birləşdirilənə qədər İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti illərində Ermənistan SSR rayonlaşdırılarkən Göyçə mahalı süni surətdə beş inzibati rayon arasında bölünüb. ( Çəmbərək rayonu, Basarkeçər rayonu, Aşağı Qaranlıq rayonu, Kəvər rayonu və Yelenovka rayonu).

Bu mahalın Çəmbərək deyilən hissəsində, Ağbulaq, Ardanış, Əmirxeyir Qaraqaya, Yanıqpəyə, Gölkənd, Toxluca, Çaykənd, Ciyil, Şorca kimi məşhur və böyük kəndləri var idi. Böyük otlaqları, yaylaları olan Göyçə mahalında yaşayan əhali daha çox əkinçilik, maldarlıq, arıçılıq, bağçılıq, xalçaçılıq və balıqçılıqla məşğul olub.

Göyçə Azərbaycan aşıq sənətinin beşiyidir. Bölgə Azərbaycan ədəbiyyat və mədəniyyət tarixinə Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Aşıq Əsəd, Aşıq Qurban kimi məşhur ustadlar, saz-söz sənətkarlarını bəxş edib.



1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda Göyçə mahalı tarixi Azərbaycan torpağı kimi onun tərkibində idi. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub. 1920-ci ildən ADR-i işğal edən yeni rus bolşevik imperiyası Azərbaycanın ərazisi olan Göyçə mahalını, Dərələyəz mahalını, Dilican ərazisini qanunsuz şəkildə Ermənistana verib.

İrsimizi, qədim tariximizi əks etdirən "Kitabi-Dədə Qorqud"da rast gəlinən yer-yurd adlarının izini Göyçə gölü boyunca hər tərəfdə tapmaq olar.

Bu eposda Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin tərənnümü və izidir. Göyçənin elə bir guşəsi yoxdur ki, orada türk-oğuz izlərinə rast gəlinməsin.

### Göyçə mahalının kəndləri:

- Bığlı Hüseyn, Zeynalağalı, Rəhmankənd, Ağqala, Əyrivəng, Qızılcıq (Əbulkəndi), Noradüz, Qışlaq, Kəvər, Qul Əli, Kosa Məmməd, Paşakəndi, Dəliqardaş, Küzəcik, Başkənd, Heyranıs, Atamxan, Vəliağalı, Təzəkənd, Dəlikdaş, Göl, Aşağı Adyaman, Yuxarı Adyaman, Əbdülağalı, Gözəldərə, Ağqıraq, Aşağı Qaranlıq, Yuxarı Qaranlıq, Zolağac, Kolanlıqırılan, Alçalı, Qarasaqqalqışlağı, Yarpızlı, Zağalı, Qızılbulaq, Qırxbulaq, Qanlı Allahverdi, Basarkeçər, Qoşabulaq, Aşağı Keyti (Salman kəndi), Baş Keyti, Ellicə, Daşkənd, Daş Keyti, Tatlı Qışlağı, Zərzibil, Zod, Ağyoxuş, Əyricə, Böyük Məzrə, Kiçik Məzrə, Kəsəmən, Şişqaya, Cil, Ardanış, Adatəpə, Şor Əli, Ağbulaq, Toxluca, Əzizli (Qaraqoyunlu), Nərimanlı.

*"Polis"*


2025-ci ilin I yarısı üçün
“POLİS”ə, öz qəzetinizə
abunə olmağa tələsin!




...“Elə bil yer üzünü quyuya sallamışdılar, bir işıq gözləyirdi ki, tutub çıxsın.

Sovrulub azadlığından balıq külüyü kimi daşların arasına girən deyinə-deyinə, sına-sına sızan su, bir vaxtlar başı üstündə sevinclə, inamla dəyirman işlədən sağlam, gümrah bir çayın son nəfəsi kimi axırdı.

Amma belə deyildi, dəirmançının əli ilə kəsilənəcən, qazana girib bişənəcən, kabab olub qızaranacan, toğlular ayaq üstə can verirdilər. Adamlar da toğluları ölü-ölü yeyirdilər.

Dəyirmançının əlindəki bıçaq göz gətirmişdi, iti, iliyə işləyən bir iştahayla yuxarıdan aşağı toğluya baxırdı.

Ağlayanda adam yekələnmir.

Temir müəllimin mədəsi dilənçi ovucu kimi açılmışdı.

Dəyirmançının dəyirman daşına çəkdiyi bıçağın səsi naxırın qabağını kəsirdi”…

Bu fikirlər Azərbaycan ədəbiyyatının tanınmış imzalarından birinin ona şöhrət gətirən əsərində yer alır. Yazıçının və əsərin adını yazan şəxsin hədiyyəsi kitab olacaq.

# Avtomobilin qapısını çırpmayın

## Xidməti avtomobillərdə buna diqqət edək

Bəzən vərdişə çevrilən bu halın avtomobildə ciddi nasazlığa səbəb olacağı çoxumuza bəlli deyil. Mütəxəssislərin gəldiyi qənaət budur ki, gündəlik intensiv istifadə səbəbindən əhəmiyyətli yüklərə məruz qalan avtomobil qapılarının xidmət müddəti yuxarıda sadaladığımız və digər vərdişlər, eləcə də baxımsızlıq səbəbindən qısala bilər.

### Qapıların çırpılaraq örtülməsi

Sürücülərin əksəriyyəti qapıları çırparaq bağlamağa öyrəşiblər. Müasir maşınlarda isə qapı kilidləri elə dizayn edilib ki, etibarlı bağlanması üçün yüngül bir hərəkət kifayətdir. Daimi güclü çırpma kilidin qırılmasına və qapının daxili komponentlərinin boşalmasına səbəb ola bilər ki, bu da hərəkət zamanı kənar səslərin yaranmasına yol açar.

### Açıq qapıya söykənmək

Bəzi avtomobil sahibləri avtomobilin yanında söhbət edərkən açıq qapıya və ya onun daxili panelinə söykənirlər. Bu asqı və bərkidici hissələrə əlavə yük yaradır, nəticədə zamanla qapı sallanır, bağlanması isə çətinləşir. Hətta yüngül təzyiq belə qapının həndəsəsinə mənfi təsir göstərə bilər.

### Qapıları sonuna qədər açmaq

Qapının kəskin və tam şəkildə sonuna qədər açılması məhdudlaşdırıcılara və asqılara zərər verir. Bu istifadə tərzi bərkidici hissələrin zəifləməsinə və boşluğun yaranmasına səbəb ola bilər ki, bu da avtomobilin istifadəsində rahatlığa və təhlükəsizliyə təsir edər.

### Qapı mexanizmlərinə müntəzəm qulluq

Qapı mexanizmlərinin müntəzəm yağlanması vacib prosedurdur, lakin çoxları bunu unudur. Lazımi qulluq olmadan asqılar aşınmağa və bəzən tutulmağa başlayır. Avtomobil mütəxəssislərinin sözlərinə görə qapı mexanizmlərinə müntəzəm qulluq göstərməklə onların istismar müddətini xeyli uzatmaq mümkündür.

# Dünyaya səs salan papaqçı qızı

## Rəqqasəlik onun taleyi, casus olmaq isə seçimi idi

Ölümündən uzun illər keçsə də haqqında dolaşan əfsanələr bu gün də eşidənləri heyrətləndirir. Əslən Hindistandan olan Marqarita Qertruda Zell 7 avqust 1876-da dünyaya gəlib. Ailəsi dindar olmaqla yanaşı, həm də ticarətlə məşğul olurdu. Atası papaqçılıq etməklə ailəni dolandırırdı. Marqarita 13 yaşına qədər varlılar üçün nəzərdə tutulmuş məktəbdə təhsil alır. Lakin sonralar Marqaritanın atası başqa bir qadına görə onları tərk edir. Atasının gedişindən sonra onun anası dünyasını dəyişir. Marqarita erkən yaşda həyatın çətinlikləri ilə üz-üzə qalır.

On doqquz yaşı olanda gələcək həyat yoldaşının dostlarının zarafatı olan elan 20 ildən çox İndoneziyada yaşayan Şotland əsilli Rudolf MacLeod ilə Marqaritanın ömür yolunu birləşdirir. Onlar bir müddət məktublaşdıqdan sonra evlənməyə qərar verirlər. Cütlüyün bir qızı, bir oğlu olur. Amma ailənin oğlu Norman 2 yaşına çatanda ağır xəstəlikdən vəfat edir.

Ailə həyatı uğurlu alınmayan Marqarita rəqslə məşğul olmağa başlayır və tez bir zamanda özünə “Mata Hari” adını götürür. Yerlilərin dilində bu ad günəş mənasını verirdi. Mata Hari 1903-cü ildə Hollandiyaya qayıdır və ərindən boşanır. Onun qızı atası ilə birgə qalır, heç bir maddi vəsaiti olmayan Marqarita tək yaşamağa başlayır. Parisə köçməyi qərara alan Mata Hari burda da rəqs etməklə rifahını yaxşılaşdırmağı düşünsə də işlər istədiyi kimi getmir. Bir çox çətinliklə üzləşdikdən sonra o tamaşaçıların qəlbini malay ekzotikası ilə fəth etmək qərarına gəlir. 1905-ci ildə Mata Hari ilk rəqsi ilə səhnəyə çıxır. Rəqs zamanı o, yavaş-yavaş soyunur. Bu rəqs onu Parisin məşhur rəqqasəsinə çevirir. Özünü rəqsin “yeni növündə” sınayan Mata Hari növbəti illərdə digər Avropa ölkələrinə uğurlu səfərlər edir. Bu illər ərzində mətbuat rəqqasənin Almaniya və Fransa kimi dövlətlərin hərbi-siyasi elitası ilə görüşdüyünü, yüksək rütbəli hərbçilərin məşuqəsi olduğunu yazır.

Çoxlu pul qazansa da rəqqasə qumara qurşandığından pullarını uduzur. Lakin buna baxmayaraq onun fotoları poçt açıqcalarının, siqaret qutularının, Holland peçenye qutularının üstünü bəzəyir.

1906-cı ildə Mata Harinin atası tam müflis olur. O, "Mənim qızımın həyatı və onun keçmiş ərinə etirazlarım" adlı kitab yazır. Bu kitab müəllifə böyük gəlir qazandırmaqla yanaşı, həm də onun qızını Avropada daha da məşhurlaşdırır.

Bir müddət sonra Parisdə rəqs etmək Mata Harini qane etmir və o, klassik Avropa səhnəsinə doğru irəliləməyə başlayır. Rejissorlar isə onunla işləməkdən imtina edir, rəqqasəni istedadsız olmaqda ittiham edirlər.



Birinci dünya müharibəsi başlananda Mata Hari Berlində varlı sevgilisi leytenant Alfred Kipertin qonağı olur. O, Hollandiya vətəndaşı olduğu üçün ölkədən çıxa bilmir və Almaniyada qalmalı olur. Almaniyada o, bir neçə dəfə həbs təhlükəsi ilə üzləşir. Alman polisi onun Rusiya imperiyasının casusu olmasından şübhələnir. Nəhayət, Mata Hari Hollandiyaya gedir, ordan da Parisə qayıdır. Burada o, keçmiş sevgilisi, fransız bankirin hədiyyə etdiyi evdə yaşamağa başlayır. Mata Hari daimi olaraq qumar oyunlarında iştirak edir, get-gedə qumarbaza çevrilir. Tezliklə bütün var-dövlətini qumara qoyan rəqqasə dilənçi vəziyyətinə düşür. Lakin, elə həmin ərəfədə ona naməlum adamlar tərəfindən kömək gəlir. Alman kəşfiyyatı onu özünə tərəf çəkməyə və casus kimi istifadə etməyə başlayır. Şəbəkə rəqqasə üçün şərait yaradır və yenidən onun ulduzu parlayır. O hərbi və siyasi xadimlərin danışdıqlarını qısa zaman ərzində kəşfiyyat idarəsinə göndərir. Marqarita müntəzəm olaraq vətəni Hollandiyaya səfər edir. Hərbi əməliyyatlar səbəbindən onun yolu İspaniya və Böyük Britaniyadan keçir. Məhz ingilis kəşfiyyatçıları rəqqasənin Madriddə yerləşən alman kəşfiyyat orqanı ilə əlaqəsi olduğunu üzə çıxarır. İngilislər bu xəbəri fransız kəşfiyyatına ötürürlər. Tezliklə onu izləməyə başlayırlar. Ancaq Mata Hari izləndiyini hiss edir. Bu səbəbdən o, Fransa kəşfiyyatının mayoru Lad ilə görüşüb izlənməsinin səbəbini tələb edir. Mayor isə hər şeyi inkar edir. Bu zaman Mata Hari hətta alman hərbi elitası ilə ciddi münasibətləri olduğunu bildirərək Fransaya casusluq xidməti təklif edir. Rəqqasə xidmət qarşılığında iri məbləğdə pul tələb edir.

Beləcə, 1916-cı ildən Marqarita Gertruda Zelle ikiqat agentə çevrilir. Ona İspaniyaya getmək və kəşfiyyat fəaliyyəti ilə məşğul olmaq tapşırılır. Tezliklə fransızlar Madriddəki alman rezidensiyasından şifrəli teleqram ələ keçirirlər. Teleqramı göndərən Mata Harinin fransızlara işlədiyi barədə alman komandanlığına məlumat ötürülür. Onun alman kəşfiyyatının casusu olması dəqiqləşdirilir. Almanlar ona tezliklə Parisə qayıtmağı əmr edirlər. Onlar ifşa olunmuş casusdan tezliklə xilas olmaq istəyirlər.

Tezliklə Mata Hari Parisə çağırılır və həbs olunur. O, dörd ay hərbi sorğuya çəkilir. Fransa əks-kəşfiyyatı Marqaritin casus fəaliyyətini araşdırmağa başlayanda məlum olur ki, onun fransız diviziyalarının məhv edilməsində əhəmiyyətli rolu olub. O, həmçinin 50 min fransız əsgərinin ölümündə günahlandırılır. Məhkəmə zamanı dövlət ittihamçısı Mata Harini “XX əsrin ən güclü casusu” adlandırır. 1917-ci il iyulun 24-də hərbi məhkəmə başlayır. Mata Hari bütün maddələr üzrə günahkar bilinir. Və onun haqqında ölüm hökmü kəsilir.

*Aytən Tahirova*
*polis kapitanı*

# Müdriklərin söz xəzinəsi

## Göy özünə mən ucayam demir

Müdrik insanlar bir-biri ilə mübahisə etmirlər.

❖❖❖

Səhvi etməkdən qorxma, təkrar etməkdən qorx.

❖❖❖

Arxaya ümidlə, geriyə təşəkkürlə, yuxarı inamla, ətrafına isə sevgi ilə bax.

❖❖❖

Hər bir insan müqəddəs tarixdir.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik